# Kütləvi toplanma yerlərindən uzaq olmaq, qorunmaq vacib şərtdir

## *Hazırkı dövrdə məsuliyyətimiz dəfələrlə artıq olmalıdır*



***Son günlər koronavirusa yoluxma hallarında artım müşahidə olunmaqla, antirekord da qeydə alınıb. Oktyabrın 25-də qeydə alınan 946 yoluxma faktı indiyədək müşahidə etdiyimiz ən yüksək gündəlik yoluxma sayıdır. Son bir ay ərzində həftələr üzrə statistikaya baxsaq, görərik ki, sentyabrın 28-dən oktyabrın 4-dək 668, oktyabrın 5-dən 11-dək 1291, oktyabrın 12-dən 18-dək 2982 və oktyabrın 19-dan 25-dək 4995 yeni yoluxma halı müşahidə olunub. Böyük təəssüflə qeyd etməliyik ki, ölüm sayı da artıb. Belə ki, xəstəlikdən həftə ərzində müvafiq olaraq, 10, 13, 17 və 45 nəfər həyatını itirib. Son 15 gün ərzində aktiv xəstə sayı təxminən dörd dəfə artıb. Rəqəmlər vəziyyətin ciddiliyini bir daha göstərir. Bu, rəsmi məlumatdır.***

COVID–19 pandemiyası ilə bağlı böhranın aradan qaldırılması üçün fövqəladə hallara daha yaxşı hazırlaşmaq, alimlərin fikrini dinləmək və əməl etmək, həmçinin həmrəylik ruhunda birgə fəaliyyət göstərmək lazımdır. Tədqiqatçılar müşahidə ediblər ki, havanın yüksək səviyyədə çirklənməsi virusun ötürülmə ehtimalını artırır. Havanın keyfiyyət indeksinin 14,3 faiz artması çirklənmənin təsirindən 2-13 gün sonra ötürməni 2,8 faiz bəndi qədər artırır. Bu nəticə hətta izolyasiya dövründən sonra və koronavirusun yayılmağa başladığı Uhandan götürülən məlumatlarda da saxlanılıb.

Oktyabrın 25-də Berlində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) dəstəyi ilə sammit keçirilib. Tədbirdə dünya dövlətlərinin, beynəlxalq təşkilatların və elmi ictimaiyyətin 2500 nümayəndəsinin iştirakı ilə səhiyyənin qlobal problemləri və onların həlli yolları müzakirə edilib. BMT-nin Baş katibi Antonio Quterreş videomüraciətində koronavirus pandemiyasının dağıdıcı nəticələrini xatırladaraq, 42,5 milyon nəfərin koronavirusa yoluxduğunu, təqribən 1 milyon 147 min nəfərin bu xəstəlikdən vəfat etdiyini bildirib. Baş katibin fikrincə, bu pandemiya qlobal səhiyyə sistemlərinin səmərəli olmadığını, onların fövqəladə hallara lazımi şəkildə cavab verə bilmədiyini sübut edib. Qeyd edilib ki, bu günə qədər pandemiya səbəbindən 500 milyona yaxın iş yeri ixtisar edilib. Dünya iqtisadiyyatının hər ay üzləşdiyi itkilər 375 milyard dollara yaxındır. Qadınlara qarşı zorakılıq halları kəskin şəkildə artıb, psixi xəstəliklər isə "böhran daxilində böhran"a çevrilib. Təqribən 24 milyon uşaq təhsil almaq imkanından məhrum olub. "COVID --19 2030-cu ilə qədər olan dövrdə davamlı inkişaf gündəliyində nəzərdə tutulanları həyata keçirmək imkanından uzaqlaşdırır", – deyən BMT rəhbəri daha sonra əlavə edib ki, "biz bu çağırışa hazır deyildik".

A.Quterreş xatırladıb ki, səhiyyənin əlçatanlığı hüququ dünyada milyardlarla insan üçün əslində əlçatmaz olub. Tibbi xidmətlərin yüksək dəyəri səbəbindən insanların çoxu bu xidmətlərdən istifadə edə bilmir. Ümumi tibbi sığorta tibbi xidmətin hər kəs üçün əlçatan, keyfiyyətli və ədalətli olmasının yeganə yoludur. Baş katib əmindir ki, bu gün elmə güvənmək, birlik və həmrəylik ruhunda fəaliyyət göstərmək həmişəkindən daha çox zəruridir. Onun fikrincə, məhz bu vasitələr, bir də virusun qarşısını almaq üçün yoxlanılmış -- maskalar, fiziki məsafə və əllərin gigiyenası pandemiyaya qalib gəlməyə kömək edə bilər. "Hər bir mərhələdə qlobal həmrəylik lazımdır. İnkişaf etmiş ölkələr resursların çatışmadığı ölkələrdə səhiyyə sistemlərini dəstəkləməlidirlər", -- deyən Quterreş vurğulayıb ki, səmərəli vaksin yaradılmasına diqqəti artırmaq və onun hamı üçün əlçatan olmasını təmin etmək lazımdır.

Onun fikrincə, vaksinlər, diaqnostika və səmərəli müalicə üsulları insanları xilas etmək tədbirləri olmaqla bərabər, pula qənaət etməyə və cəmiyyəti xilas etməyə kömək edəcək. Təkcə bir istiqamətdə fəaliyyət göstərməklə virusa qalib gəlmək mümkün deyil. Baş katib bu problemi kompleks şəkildə həll etməyə çağırır, müasir tədqiqatları səhiyyə sahəsində baza əhəmiyyətli tədbirlərlə əlaqələndirməyi təklif edir. Vurğulanıb ki, yalan məlumatın yayılması öldürücü virusun müttəfiqidir. Onun sözlərinə görə virus, şayiələr və yalan birləşdikdə yoluxma və ölüm halları artır, sosial gərginlik və zorakılıq geniş yayılır. O deyib: "Əgər biz şayiələrin sui-qəsd və yalan nəzəriyyələrinin qarşısını almasaq, bütün səylərimiz puç olacaq". Quterreş BMT-nin COVID–19 pandemiyası ilə bağlı yalan informasiyanın yayılmasına qarşı mübarizəyə yönəlmiş "Yoxlanılmışdır!" kampaniyasını xatırladıb və beynəlxalq birliyi COVID–19-a qarşı vahid cəbhə şəklində çıxış etməyə çağırıb.

Xatırladaq ki, yeni növ koronavirus (COVID–19) da, mövsümü qrip də yuxarı və aşağı tənəffüs yolları xəstəliyidir. Bunlar fərqli viruslar olsa da, temperatur, öskürək, tənəffüs çatışmazlığı, qızdırma, halsızlıq, boğaz ağrısı kimi kliniki əlamətlərə görə oxşardır və hər iki xəstəlikdə ağciyərin tutulması baş verir. Lakin yeni növ koronavirus üçün xarakterik olan əlamət iybilmə və dadbilmə hissinin itməsidir. Bu son iki əlamət koronavirus infeksiyasından şübhələnməyə əsas verir. Ona görə də yalnız klinik əlamətlərə görə dəqiq diaqnoz qoyula bilməz, çünki yoluxma halı laboratoriya şəraitində alınan yaxmanın mikrobioloji analizi nəticəsində təsdiq edilə bilər. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) yoluxucu xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyevin bildirdiyinə görə, payız mövsümü tənəffüs yolu infeksiyalarının artması havaların soyumasına baxmayaraq, mövsümə uyğun geyinməmək, qapalı məkanlardan daha çox istifadə etmək və belə şəraitdə infeksiyanın ötürücülük şəraitinin və təmasların artması ilə əlaqədardır. Ona görə də karantin rejimi yumşaldılanda da həmişə qoruyucu tədbirləri zəifləməmək barədə xəbərdarlıq edilir. Hansısa bir dərmandan istifadə etməklə ondan qorunmaq olmaz, hələlik virusdan qoruyan peyvənd də tam təsdiq edilməyib, ona görə preventiv tədbirlər vasitəsilə özümüzü qorumalıyıq. Maska taxılması, sosial məsafə saxlanılması, antiseptik vasitələrdən istifadə edilməsi və gigiyena qaydalarına əməl edilməsi təkcə COVID–19 üçün deyil, digər respirator infeksiyalar üçün də vacibdir.

Ölkəmiz bir aydır ki, haqq savaşındadır. Xalqımızın diqqəti əsasən bu savaşa yönəldiyinə görə infeksiyaya qarşı mübarizə bir qədər arxa plana keçib. Bəzi hallarda bu səbəbdən sayıqlıq hissi bir qədər zəiflədi və buna görə koronavirus infeksiyası daha çox yayılmaqda davam etdi. Əlbəttə, təhlükəli virusun qarşısını almaq yalnız tədbirli davranmaqla mümkündür. Ona görə də indiki vaxtda qaydalara daha ciddi əməl etmək lazımdır, çünki bu sahədə sayıqlığın itirilməsi orduya, zabit və əsgərlərə də sirayət edə bilər. Bunu nəzərə alaraq qaydalara daha ciddi əməl etmək hər kəsin vətəndaşlıq borcuna çevrilməlidir.

Mütəxəssislər bildirirlər ki, COVID–19-a qarşı peyvənd hələ ki, araşdırılma mərhələsindədir. Bir peyvənd tətbiq edilməmişdən əvvəl fayda və zərəri öyrənilməli, hansı yaş qruplarını nə qədər müddətə qoruyacağı, eləcə də, yan təsirləri tədqiq edilməlidir. Həmin araşdırmaların nəticəsi isə uzun bir vaxt ərzində baş verir. Qrip peyvəndi isə artıq illərdir ki, oktyabrın əvvəllərindən başlayaraq tətbiq olunur və həmin peyvənd xəstəliyi daha yüngül formada keçirməyə kömək edir. Qrip virusu hər il mutasiyaya uğrayır. Peyvəndin daimi qoruyuculuğu olmadığına görə, hər il həmin virus təkrar yayılır. Həmin peyvənd Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən altı aylığından beş yaşına qədər olan uşaqlara, yaşı 50-dən yuxarı olanlara, xroniki xəstələrə, hamilə qadınlara, yanaşı xəstəliyi olanlara, ümumilikdə, bütün yaş qruplarında olanlara vurula bilər.

Yolxumanın qarşısını almağın yolları karantin davranışlarına nəzarət və sərt məhdudiyyətlərin tətbiq olunmasıdır. Ox yaydan çıxanda və buna nəzarət etmək mümkün olmadıqda, daha sərt tədbirlər görülə bilər. Professor Adil Qeybulla bldirib ki, insanlar bu təhlükəli situasiyanın fərqində olmalıdırlar: "Çünki biz müharibə edən bir ölkəyik. Virusun ön cəbhəyə keçməsinin qarşısını hər vəchlə almalıyıq. Odur ki, karantin davranışlarına ciddi əməl olunmalıdır. Qapalı mühitlərdə, marketlərdə bərbad vəziyyət hökm sürür. İnsanlar təəssüflər olsun ki, karantin davranışlarını gözləmirlər. Bütün bunlar əlbəttə ki, yoluxmaya səbəb olur. Əslində, pandemiyanı uzadan bizim laqeyd davranışlarımız oldu. Necə oldu ki, Çində bunu lokallaşdıra bildilər, amma digər ölkələrdə mümkün olmadı? Deməli, karantin qaydalarının pozulması oldu ki, bu qədər uzandı. Sərt karantin tədbirləri görülməsə, yoluxma sayının artması davam edəcək. Bu artım tək Azərbaycanda deyil, dünyada mövcudur".

Mütəxəssisin sözlərinə görə, virusun davametmə dövrü – tsikli bir ilə yaxındır. Bu da dekabrın sonlarına və ya yanvarın əvvəllərinə təsadüf edir. Bəzi proqnozlara əsasən, bir ildən sonra tədricən normal həyata qayıtmaq mümkün olacaq. Lakin bu gedişlə, belə tezliklə normal həyata qayıdış real səslənmir. Həkim onu da qeyd edib ki, pandemiyanın əvvəlindən bu günə qədər yeni növ koronavirusun müalicə protokollarında bir neçə dəyişiklik nəzərə çarpır: "Müalicə protokollarında dəyişiklik ondan ibarətdir ki, hazırda heç bir antibiotik və antiviral dərmanlar COVID–19-da istifadə olunmur. Amma bu, o demək deyil ki, insanlar heç bir həkim resepti olmadan dərman alıb qəbul edə bilərlər. Müalicə yalnız həkim nəzarətində təyin olunmalıdır.

Azərbaycan kimi ölkədə kütləvi immunitetin yaranmasından da danışmaq asan məsələ deyil. Çünki əhalinin sıxlığı fərqlidir. Abşeron yarımadasında bu mümkündür, lakin bunun üçün əhalinin 70 faizi xəstələnməlidir ki, kütləvi immunitet yaransın. Yolxuma ilə bağlı statistika tam bəlli deyil və reallığı əks etdirmir. Çünki insanların çoxu evdə müalicə olur, xəstələndiyini bildirmir".

Qeyd edək ki, paytaxtın rayonları arasında ən yüksək yoluxma göstəricisi Binəqədi rayonunda qeydə alınıb. Belə ki, paytaxt üzrə yoluxma hallarının 14,5 faizi həmin rayonun payına düşür. Bakı şəhərinin digər rayonlarına gəlincə, yoluxma hallarının 12,6 faizi Xətai, 11,7 faizi Yasamal, 11,6 faizi Sabunçu, 8,7 faizi Nəsimi, 8,1 faizi Nərimanov, 7,9 faizi Suraxanı, 7,2 faizi Nizami 7 faizi Qaradağ, 5,7 faizi Xəzər, 4,7 faizi Səbail, 0,3 faizi Pirallahı rayonlarında qeydə alınıb. Onu da qeyd etməliyik ki, ölkəmizdə koronavirusa ən çox yoluxma faktı Bakı şəhərində müşahidə olunub. Belə ki, ümumi yoluxma hallarının 55,7 faizi paytaxtda qeydə alınıb. Bu, Bakıda əhalinin sıxlığı, gediş - gəlişin çoxluğu, nəqliyyatdan daha çox istifadə ilə əlaqələndirilir.

Mütəxəssislər vətəndaşları məsuliyyətli və diqqətli olmağa, qaydalara əməl etməyə çağırırlar: "Xüsusilə hazırkı dövrdə məsuliyyətimiz dəfələrlə artıq olmalıdır. Torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda mübarizəmiz davam edir, cəbhədə döyüşən əsgər-zabit heyətini düşünməliyik. Onların belə fədakarlığı qarşısında qorunma tədbirlərimizi çox görməməliyik. Yoluxma belə artmağa doğru getdikcə, səhiyyə işçilərimizin diqqəti yenidən koronavirusa yönəlir. Hazırkı şəraitdə bunlar ölkəmiz üçün ən arzuolunmaz haldır. Ona görə də hər kəsi kütləvi toplanma yerlərindən uzaq olmağa, buna məcbur olduqda maska taxmağa, sosial məsafə saxlamağa və əl gigiyenasına əməl etməyə səsləyirik".

*Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"*

Xalq qəzeti 2020.-29 oktyabr.- S.13.